Nazir Brüsseldə bir sıra ikitərəfli görüşlər keçirib

Yazan
04.12.13 18:27 -



NATO-nun və Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinə töhfə verən dövlətlərin xarici işlər nazirlərinin iclasında iştirak etmək məqsədilə Brüsselə səfər edən xarici işlər naziri Elmar Məmmədyarov, səfər çərçivəsində Türkiyə, Xorvatiya, Estoniya, Gürcüstan, Rumıniya və Finlandiya xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirib.

Bu barədə Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, görüşlər zamanı tərəflər NATO-nun Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri əməliyyatı, regional məsələlər, eləcə də enerji təhlükəsizliyi və müxtəlif sahələri əhatə edən ikitərəfli əməkdaşlıq məsələlərini müzakirə ediblər.